# Prezident İlham Əliyev VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində iştirak edib

**Mayın 1-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə birgə foto çəkdirildi.

Tədbirin moderatoru, ABŞ-nin Corc Meyson Universitetinin Sülh və Münaqişələrin Həlli üzrə Cimmi və Rozalin Karter Məktəbinin dekanı, professor **Alpaslan Özerdem** dedi:

- Zati-aliləri Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, dini nümayəndələr, xanımlar və cənablar.

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna xoş gəlmisiniz.

Bakıda toplaşdığımız zaman biz sərhədləri aşan, məfkurələri keçən dərin çağırışlarla və fürsətlərlə səciyyələnən qlobal durumun şahidiyik. Bəşəriyyət iqlim dəyişmələri, pandemiya, terrorçuluq, kiber təhlükələr və geosiyasi gərginlik kimi mürəkkəb məsələlərlə üzləşir. Əlbəttə ki, biz münaqişələri həll etməli və sülhü qurmalıyıq. 2011-ci ildə başladıqdan sonra məhz "Bakı Prosesi" bu məqsədi vacib tutub. Bu gün "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda forumda əməkdaşlıq formalarını, rəhbərlik üsullarını müzakirə edəcəyik.

Xanımlar və cənablar.

Bu gün nümayəndələrimizə söz verməzdən öncə qısa videoçarxa baxacağıq. Orada "Bakı Prosesi" təsvir olunacaq.

❖ ❖ ❖

"Bakı Prosesi"ndən və Azərbaycanın mədəniyyətlərarası dialoqa töhfələrindən bəhs edən videoçarxda deyilir:

- 2024-cü ildə dünyamız daha çox əlaqəli görünür, lakin heç vaxt olmadığı qədər parçalanmış qalır.

Bütün çağırışlar qarşısında bizim bir araya gəlmək, parçalanmanı dəf etmək və daha parlaq ümumi gələcəyə doğru yol açmaq üçün nadir fürsətimiz var. Bu, "Bakı Prosesi"nin özəyidir. Bakıya, Azərbaycana xoş gəlmisiniz. Burada Şərq ilə Qərb, ənənə ilə müasirlik qovuşur.

"Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna xoş gəlmisiniz. Bu mühüm Ümumdünya Forumu "Bakı Prosesi"nin hissəsi olaraq mədəniyyətlərarası dialoqu qlobal şəkildə təşviq edir. Forum fərqli etnik, mədəni, dini və dil mənşəyi olan insanları bir araya gətirir, qarşılıqlı anlaşmaya doğru açıq və hörmətcil mübadilə üçün platforma yaradır.

2-3






Azərbaycan.- 2024.- 2 may. № 89.- S.1.